


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

27 yanvar 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 4 (3567)


# REGİONDA SABİTLİK DAİMİ SÜLHÜN TƏMƏLİDİR






İkinci Qarabağ müharibəsindən sonra Ermənistan 90-cı illərin Azərbaycanının aqibəti ilə üzləşib. Ölkədə xaos və inamsızlıq hökm sürür. İqtisadi çöküş siyasi çaxnaşmalara yol açıb. Aqibətin belə gözlənilməz məcraya yönələcəyini proqnozlaşdırmayan siyasilər müharibədən öncəki ritorikalarını tərgitməyə başlayıblar. Səbəb bəllidir: Ermənistan müharibəni uduzub, onun olmayan əlindən çıxıb, dünyada güvənilməyən dövlət imici qazanıb. Düzdür, Qazaxıstan hadisələrindən sonra "KTM" vasitəsilə nələrisə əldə etməyə ümidlənsələr də Azərbaycan Prezidentinin siyasi iradəsi yollarını və dillərini birdəfəlik kəsdi. Ötən 30 il ərzində tərəflər arasındakı münaqişəyə susqunluq nümayiş etdirən, onun beynəlxalq hüquq çərçivəsində həllinə tərəfdar olduğuna dair heç bir addım atmayan, əksinə ikili siyasət yürüdən qurum və ya qurumlarla bir masada əyləşmək bir yana, hətta tarixə gömülmüş məsələni müzakirə etməyin mümkünsüzlüyü bunun bariz nümunəsi idi.

İstər münaqişə, istərsə də ondan sonrakı dövrdə Azərbaycanın başladığı regional layihələr dünya üçün yeni imkanlar yaradır. Düzdür, dünyanı cənginə alan pandemiya, Vətən müharibəsi və bu gün Qarabağda vüsət alan tikinti-quruculuq işləri ölkəmizin büdcəsinə təsirsiz ötüşmür. Ancaq siyasi hədəflərin iqtisadi canlanmaya səbəb olması onu deməyə əsas verir ki, bu proseslərdə iştirak edənlər düz yoldadırlar. Çünki altında Azərbaycan Prezidentinin imzası olan hər bir layihənin uğurla başa çatması günümüzün reallığıdır.

"Nəyi, nə vaxt və necə etmək" artıq örnəyə, dünyada isə Azərbaycan brendinə çevrilib. Bu fikrin təməlində, əslində, Qafqazın siması olan Azərbaycan durur. Siyasi, iqtisadi potensialı və güclü ordusu ilə mehriban qonşuluq siyasəti yürüdən dövlətin öz resurslarını sülh uğrunda səfərbər etməsi indiki dünya düzənində yalnız alqışa layiqdir.

Bəs bunu dünyanın vahid gücü olmağı hədəfləyənlər görürlərmi? Görürlərsə bu münasibətlərdə özünü nə üçün göstərmir?

Dəfələrlə beynəlxalq tribunalardan da bəyan etmişik ki, məqsədimiz regionda sülh və əmin-amanlığın daimi olmasına töhfə verməkdir. Ərazi bütövlüyümüzün bərpası isə bu istiqamətdə atdığımız ilk addım idi. Biz bunu qan tökülmədən, insan itkisinə yol vermədən edə bilərdik, illərlə bunun üçün yetərincə çaba göstərdik, ancaq təəssüflər olsun ki, siyasi səylərimizə dəstək ifadə edənlərin sözü ilə əməli üst-üstə düşmədi. Onların dilə gətirmədiyi həqiqəti isə Dəmir yumruğumuz dünyaya bəyan etdi.

Azad Qarabağımız indi döyüş yox, sülh meydanıdır. Tökülən qanlara yox demək üçün tribunamız Şuşadır. Regionda dayanıqlı sülh və təhlükəsizliyin təmini üçün danışıqlar masasında biz yerimizi tutmuşuq. Növbə isə...

## VƏTƏNƏ VƏ XALQA SƏDAQƏTLƏ...





Ömürlərinin önəmli bir hissəsini dövlətə, dövlətçiliyə xidmətə həsr edib təqaüdə gedən həmkarlarımızın Daxili İşlər Nazirliyində yolasalma mərasimi keçirilib.

Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov xidmətdə olmalarının son yaş həddi ilə bağlı DİN Katibliyinin rəisi, polis general-mayoru Səfər Əliyevi və DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin MDB-nin iştirakçısı olan dövlətlərin ərazisində mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə mübarizənin əlaqələndirilməsi üzrə Büronun direktor müavini, polis general-mayoru Əkbər Yusifovu qəbul edib.

Nazir Vilayət Eyvazov DİN Katibliyinin rəisi, polis general-mayoru Səfər Əliyevin vətəndaş məmnunluğunun təminində, ərizə və şikayətlərin obyektiv, həssaslıqla araşdırılmasında, eləcə də qanunçuluğun qorunmasında böyük əməyinin olduğunu vurğulayıb. Onun DİN sistemi üçün normativ-hüquqi aktların hazırlanması işinin təşkilində də yüksək peşəkarlıq sərgilədiyini bildirib.

Qeyd edilib ki, cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qorunmasında, xidməti vəzifələrin və xüsusi tapşırıqların yerinə yetirilməsindəki fəaliyyətinə görə onun Prezident İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilməsi qüsursuz xidmətinə verilən ali dəyərin göstəricisidir.

Nizam-intizamı, qətiyyəti və təşkilatçılığı, eyni zamanda yüksək insani keyfiyyətləri ilə həmkarlarına örnək bir ömür yaşayan S.Əliyevin bundan sonra da sıralarımızda xidmət etməsi ona göstərilən yüksək etimaddır.

Nazir Büronun direktor müavini, polis general-mayoru Əkbər Yusifovun da MDB-nin iştirakçısı olan dövlətlərin ərazisində cinayətkarlığın qarşısının alınması və açılması işinin səmərəli təşkilində, ictimai asayişin və təhlükəsizliyin etibarlı təmin edilməsindəki xidmətlərini yüksək qiymətləndirərək, cinayət təhdidlərinin qarşısının alınmasına töhfələr verdiyini bildirib. Bürodakı fəaliyyəti ilə transmilli cinayətkarlığa qarşı barışmaz mübarizə aparan Azərbaycanın daxili işlər orqanlarını layiqincə təmsil etdiyini diqqətə çatdırıb.

Vurğulanıb ki, onun səriştəsi, peşəkarlığı, idarəçilik bacarığı, xidmətdəki uğurları hər zaman ölkə və DİN rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib, bir çox mükafata layiq görülüb, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə "İgidliyi görə" medalı ilə təltif olunub.

Yolasalma tədbirlərində nazir, general-polkovnik Vilayət Eyvazov onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, zəngin təcrübələrini gənclərlə bölüşəcəklərinə, onların Vətənə, dövlətçiliyə, anda sədaqət ruhunda tərbiyə olunmalarına, cəmiyyətdə polisin işgüzar nüfuzunun qorunub saxlanılmasına yaxından kömək edəcəklərinə əminliyini ifadə edib.

Səmimi qəbula, yüksək diqqət və qayğıya, xoş sözlərə görə minnətdarlığını bildirən S.Əliyev və Ə.Yusifov bilik və bacarıqlarını, təcrübələrini bundan sonra da əsirgəməyəcəklərini, polisin şərəfini daim uca tutacaqlarını diqqətə çatdırıblar.

# ANDINA SADİQ XÜSUSİ TƏYİNATLI



***44 günlük Vətən müharibəsində qarşıya qoyulan döyüş tapşırıqlarını rəşadətlə yerinə yetirən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının ön cəbhədə göstərdikləri hünər və peşəkarlıq Zəfər salnaməmizə qızıl hərflərlə yazıldı.***

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, xüsusi təyinatlı baş çavuş Qurbanov Ruslan Üzeyir oğlu da Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmaqla ölümsüzlük qazananların sırasında yer aldı.

O, 1991-ci il sentyabrın 7-də Biləsuvar rayonunun Ağalıkənd kəndində doğulub. Atası Üzeyir Qurbanov Birinci Qarabağ müharibəsinin iştirakçısıdır, Füzuli və Cəbrayıl rayonlarının müdafiəsi uğrunda erməni işğalçılarına qarşı döyüşüb.

Ağalıkənd tam orta məktəbinin məzunu olan Ruslan 2009-cu ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin Daşkəsən rayonunda yerləşən "N" saylı hərbi hissəsində hərbi xidmət keçib. 2011-ci ilin aprel ayında ordu sıralarından ehtiyata buraxılıb.

2013-cü ilin may ayının 10-da Daxili Qoşunların sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Vətən müharibəsi başlayanadək qoşunların Gəncədəki "N" saylı hərbi hissəsində xidmət edib. Hərbi hissədə xüsusi vasitələrin tətbiqi dəstəsində atıcı, xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun yarımqrupunda isə pulemyotçu kimi etimadı doğruldub.

2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsində ilk döyüşə Kəlbəcər istiqamətindən, Murovdağ ərazisindən atılıb. Mürəkkəb dağlıq relyefə, qeyri-sabit hava şəraitinə malik bu ərazidə atəş altında hücuma keçərək işğalçıların müdafiə xəttinin yarılması çətin döyüş tapşırığı olsa da Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin xüsusi təyinatlıları ilə birgə düşmənin Murovdağdakı mövqelərinə tutarlı atəş zərbələri endirərək onu ciddi itkiyə məruz qoyublar.



**Sonuncu tapşırıq görünmədən görmək, ölmədən dönmək olsa da...**

Daxili İşlər Nazirliyinin İsmayıllı Rayon Polis Şöbəsinin Post-Patrul Xidməti Bölüyünün komandir müavini, Daxili Qoşunların sabiq hərbi qulluqçusu, Vətən müharibəsi iştirakçısı polis baş leytenantı Qurban Səfərli: "Murovdağda döyüşmək və hərəkət etmək çətin idi. Kəlbəcər istiqamətində düşmənin iki postunu ələ keçirdik. Sonrakı tapşırığımız Susuzluq kəndini azad edərək burada mövqeyimizi möhkəmləndirmək idi. Bu plan dəyişdi, döyüş şəraiti nəzərə alınaraq geri qayıtmaq əmri verildi. Sentyabrın 28-də düşmən bizim qüvvələrin yerini təsbit edərək iriçaplı silahlardan, o cümlədən, minaatanlardan atəşə tutdu. Ruslanı sonuncu dəfə görəndə pulemyotun lentini belinə dolamışdı. Minaatan mərmisinin partlayışından ağır yaralanaraq şəhid oldu".



Şəhid hərbi qulluqçumuz Ağalıkənd qəbiristanlığında torpağa tapşırılıb. Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş R.Qurbanov ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Bir oğul övladı yadigar qalıb.

*Yalçın Abbasov,*
*DİN Daxili Qoşunlarının veteranı*

# Mənəvi-psixoloji təminat diqqət mərkəzindədir

**Hər bir şəxsin mənəvi-psixoloji vəziyyəti içində olduğu psixoloji mühitdən "qidalanır".**

Gün ərzində onlarla hadisə ilə qarşılaşan polis əməkdaşının stresli, gərgin iş mühiti isə aydın məsələdir ki, onun beynində, düşüncəsində, hətta davranışında belə iz buraxır. Kollektiv daxilində münasibətlərin qanunvericiliyin və normativ aktların tələbləri çərçivəsində formalaşması da psixoloji ab-hava baxımından olduqca vacibdir. Buna istinadən, daxili işlər orqanlarında şəxsi heyətin mənəvi-psixoloji təminatı hər zaman aktual olub.

Məlum olduğu kimi, daxili işlər orqanlarında bu işi DİN Şəxsi Heyətlə İş İdarəsi mənəvi–psixoloji təminat tədbirlərini təşkil etmək və metodiki dəstək verməklə həyata keçirir.

**İdarənin şöbə rəisi, polis polkovniki Elxan Mürsəlov** qəzetimizə bildirib ki, pandemiyanın yaratdığı məhdudiyyətlər səbəbindən hazırda bu istiqamətdə tədbirlər virtual məşğələ və seminarlar vasitəsilə davam etdirilir. Məsələn, ötən il bayır xidməti əməkdaşları, müstəntiqlər, cinayət-axtarış, təhqiqat işçiləri, rəis müavinləri, şöbə və bölmə rəisləri ilə 10-dan artıq belə təlim keçirilib.

O, qeyd edib ki, polis əməkdaşlarında yeni düşüncə tərzinin, geniş dünyagörüşün formalaşdırılması, adət-ənənələrimizə uyğun etik-davranış qaydalarının daha dərindən aşılanması mühüm əhəmiyyət kəsb edir və Nazirliyin rəhbərliyi tərəfindən diqqət mərkəzində saxlanılır.



Bunun nəticəsidir ki, daxili işlər orqanlarının şəxsi heyəti arasında sağlam mənəvi-psixoloji mühit qorunub saxlanılır. Əməkdaşların Vətənə, dövlətçiliyə, xidməti borca sədaqət hissilə xidmət etmələrinin başlıca şərti də budur. Ancaq, obyektivlik naminə bəzi arzuolunmaz halları da qeyd etməliyik. Təbii ki, iş olan yerdə nöqsan da olur, ancaq elə hallar var ki, qanun keşikçisi ona heç bir halda yol verməməlidir.

Müsahibimiz hesab edir ki, ailə-məişət normalarının pozulması bunların ən birincisidir: "Digər bir hal sosial şəbəkələrdən istifadə zamanı artıq şərhlərin, fotoşəkillərin yerləşdirilməsi, yersiz söz-söhbətlərə qoşulma, içki masası arxasında şəkillərin payaşılması hallarına yol verilməsidir. Əməkdaş unutmamalıdır ki, o, həm qanun keşikçisi, həm də mənəviyyat daşıyıcısıdır".

Sosial şəbəkələrdən qeyri-yaradıcı məqsədlərlə istifadə etmək internet platformalarında müzakirələrə, əməkdaşın şəxsi həyatı, eləcə də xidməti fəaliyyəti ilə əlaqəli mənfi nəticələrə gətirib çıxarır. Və yaxud yerinə yetirəcəyini qabaqcadan bilmədiyi halda üzərlərinə borc və ya digər öhdəliklər götürənlər son nəticədə onları icra etməkdə çətinlik çəkirlər. Bu isə lüzumsuz məhkəmə çəkişmələrinə, mülki-iqtisadi münasibətlərdə polis əməkdaşına etimadsızlığın formalaşmasına şərait yaradır.

Gərgin iş rejimində xidmət edən polis əməkdaşlarının fərdi psixoloji vəziyyətinə gəlincə, şöbə rəisi deyib ki, ixtisasartırma kurslarına dəvət olunan psixoloqlar dinləyicilər qarşısında mühazirələrlə çıxış etməklə, bir növ, onların "stres yükünü" azaldırlar. Bununla yanaşı, DİN-in Kollegiya qərarlarından irəli gələrək mütəxəssislərin şəxsi heyətin psixoloji təminat məsələlərinə daha aktiv cəlb olunması da gündəlikdədir.

*R.Mehtiyev*

# İNAM və GÜVƏNC YERİ...

Əmin-amanlığı bərpa etmək, təhlükəsizliyin təmini ilə yanaşı, vətəndaşların hüquqlarını qorumaq da peşəmizin təməl prinsiplərindəndir. Elə buna görədir ki, həm də ölkəmizdə müxtəlif sahələrdə çalışan, habelə turist kimi gələn xarici dövlətlərin vətəndaşlarının da güvənc və ümid yeriyik.

Ünvanımıza gələn məktublarda yazılanlar xidmətimizə verilən qiymətin, sevginin və sayğının bariz nümunəsidir.

"Gənc ailə olaraq üç ilə yaxındır ki, Azərbaycanda yaşayırıq. Bu günə qədər istər iş yoldaşlarımızdan, istərsə tanış olduğumuz digər insanlardan yalnız diqqət və qayğı gördük. Təəssüflər olsun ki, çoxdan tanıyıb inandığımız biri tərəfindən aldadıldıq. Bu məsələylə əlaqədar Suraxanı Rayon Polis İdarəsinə gedib kömək istədik. Qısa müddət ərzində problemimiz aradan qaldırıldı və bizə dəyən maddi ziyan ödətdirildi. Qanunlarla maddi və mənəvi olaraq qoruma altında olduğumuzu görmək, iki dövlət, bir millət olaraq çətin günlərdə biri-birimizə sahib çıxmağın şahidi olmaq burada yaşayan və daha çox yaşamaq istəyən bizim kimi insanlara ümid verir. Bizi səmimiyyətlə qarşılayıb, təmkinlə dinləyən, problemin qısa müddətdə



aradan qaldırılmasında və dəymiş ziyanın ödətdirilməsində əməyi keçən polis əməkdaşlarına dərin minnətdarlığımızı bildiririk".

Bu sətirlər **Türkiyə vətəndaşları Berrin Nur Çelik və Sinan Çelikin** DİN rəhbərliyinə ünvanladığı məktubundandır.

**İnstaqram izləyicisi Seymur Səfərov** məktubunda yazır: "İnstaqram səhifəsi vasitəsilə mebel sifarişi etdim və 600 manat ödədim. Sonradan aldadıldığımı bildim və məsələylə bağlı Nəsimi RPİ-nin 21-ci Polis Bölməsinə müraciət etdim. Polis əməkdaşları müraciətimə çevik reaksiya verərək tez bir zamanda sifarişi qəbul edən şəxsi tapıb mənə dəymiş ziyanın ödətdirilməsini təmin etdilər. Göstərilən köməkliyə görə DİN rəhbərliyinə və 21-ci Polis Bölməsinin şəxsi heyətinə təşəkkür edirəm".

Digər məktub isə **Astara rayon sakinləri Əlisahib Abbasov, Fidan Abbaszadə və Müşfiq Vəliyev** tərəfindən gəlib. "İctimai asayişi pozan, dinc insanların şərəf və ləyaqətini təhqir edərək alçaldan iki qardaş barəsində "102" Zəng Mərkəzinə və Rayon Polis Şöbəsinə müraciət etdik. Bu məsələ operativ araşdırıldı, xuliqanlıq edənlər saxlanıldı və layiqli cəzalarını aldılar. Buna görə də Astara RPŞ-nin şəxsi heyətinə təşəkkürümüzü bildiririk".

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*




# İnternet "cinayət"ləri

## Polis sosial şəbəkələr üzərindən də törədilən hüquqpozmalara qarşı qətiyyətli mübarizə aparır

Günümüzdə texnologiyanın yaratdığı imkanlardan çoxları fəaliyyət göstərdiyi sahədə işinin təkmilləşdirilməsi, asanlaşdırılması, eyni zamanda müxtəlif informasiyalar əldə etmək məqsədilə, bir qism isə asudə vaxtından səmərəli yararlanmaq, ünsiyyət metodu kimi istifadə edir. Qısası, internet resurslarından hərə öz məqsədinə, düşüncə tərzinə, dünyagörüşünə uyğun bəhrələnir, yəni bu hər kəsin individual seçimidir. Ancaq sosial şəbəkə platformaları daxil heç bir halda təhqirə yol vermək, şəxsiyyəti, şərəf və ləyaqəti alçaltmaq, kimliyindən asılı olmayaraq şəxs barəsində həqiqəti əks etdirməyən məlumatlar yaymaq yolverilməzdir.



Daxili İşlər Nazirliyinin müasir texnologiyalarla peşəkarcasına işləməyi bacaran yüksək ixtisaslı kadrlarının bu hallara qarşı qətiyyətli mübarizəsinin nəticəsidir ki, təqsirkarlar qısa zaman kəsiyində müəyyən olunub ifşa edilirlər.

Hazırda Türkiyədə yaşayan sebnem_rehimova57 adlı sosial şəbəkə istifadəçisi də tanımadığı şəxs tərəfindən təhqir olunması ilə bağlı DİN-ə müraciət edib.

İş aidiyyəti üzrə Nərimanov RPİ 18-ci Polis Şöbəsində araşdırılıb. **Şöbə rəisi, polis polkovnik-leytenantı Bayram Alıyevin** sözlərinə görə, təhqir etməkdə ittiham olunan şəxs, Bakı şəhər sakini A.Əmirov şöbəyə dəvət olunub, qanunvericiliyin tələbləri izah edilməklə profilaktiki söhbət aparılıb və o, törətdiyi əməldən peşmançılıq hissi keçirdiyini etiraf edib. Tərəflərin razılığı əsasında işə xitam verilib və A.Əmirov mövcud qanunvericiliyə görə cərimələnib.

*Teymur Əlizadə,*
*polis mayoru*

# HÜQUQ TARİXİMİZDƏN

**Azərbaycanın hüquq üzrə ilk professoru, Sarbonna Universitetinin məzunu Mustafa ağa Vəkilov 1899-cu ildə Qazax qəzasında görkəmli ictimai xadim Məhəmməd ağa Vəkilovun ailəsində dünyaya gəlib.**



Atası Azərbaycan Xalq Cümhuriyyətinin dəftərxana rəisi olub. Bibisi Badisəba xanım Vəkilova maarifpərvər edib Firudin bəy Köçərlinin həyat yoldaşı idi. O, 1917-ci ildə Tiflis kişi gimnaziyasını bitirdikdən sonra Azərbaycan Xalq Cümhuriyyətinin Tiflisdəki daimi nümayəndəliyində tərcüməçi işləyib. Parlamentin 1919-cu il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini hüquq sahəsində davam etdirmək üçün Paris Universitetinə göndərilib.

Universiteti bitirdikdən sonra hüquq magistri elmi dərəcəsi alıb.

Mustafa ağa Vəkilov təhsilini başa vurduqdan sonra Moskvaya, Kremlə gələrək orada MİK-in sədri N.Nərimanovla görüşüb. Vəkilov 1924-1927-ci illərdə Azərbaycanın ədliyyə orqanları, 1927-1937-ci illərdə ali məktəblərində çalışıb, həmçinin elmi-tədqiqat, tərcümə və redaktə işi ilə məşğul olub.

Mustafa ağa Vəkilov iki iri elmi əsərin müəllifidir: «İnqilabdan əvvəlki Azərbaycanda nikah münasibətləri», «Hüquq və əxlaq». Hüquqi mövzularda əsərlər, həmçinin mülki hüquqdan qısa dərslik yazıb, "Rusca-Azərbaycanca lüğət" (Bakı, 1938) tərtib edib.

1941-ci ilin yanvarın 25-də XDİK yanında Xüsusi Müşavirədə Mustafa Vəkilov «antisovet-millətçi təşkilatda iştirakına görə» cəzasını islah-əmək düşərgəsində çəkməklə 5 il müddətinə azadlıqdan məhrum edilib.

M.Vəkilov 1943-cü il aprelin 30-da sürgündə vəfat edib.

# JURNALIMIZIN NÖVBƏTİ NÖMRƏSİ...

**“Asayişin keşiyində” jurnalının 14-cü nömrəsi çap olunub.**




Jurnalın ilk səhifələrində Vətən müharibəsindən sonra regionda dəyişən siyasi reallıqlar, Qarabağ və Şərqi Zəngəzura Prezident İlham Əliyevin səfərləri, onun rəhbərliyi altında aparılan yenidənqurma işləri, Şuşada keçirilən Zəfər Gününün siyasi-hərbi əhəmiyyəti barədə təhlillərə yer verilib. Eləcə də Daxili İşlər Nazirliyində baş tutan Kollegiya iclası, rəsmi qəbullarla bağlı xəbərlər, Polis Akademiyasının yubiley mərasimilə bağlı geniş material öz əksini tapıb.

Daxili Qoşunların Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçularının anım mərasimlərindən reportajlar, polis əməkdaşlarının döyüşən oğulları, həmkarlarımızın müxtəlif sahələrdə nailiyyətlər qazanmış övladları barədə məqalələr də oxucuların ixtiyarındadır.

Jurnalın “Tariximiz” və “Maraq dünyası” rubrikalarında isə müxtəlif mövzular işıqlandırılıb.

*“Polis”*

# SABAHIMIZI DÜŞÜNƏRƏK...

## Polis mübarizə aparmaqla yanaşı, həm də maarifləndirir

***Paytaxt və bölgələrdə polis əməkdaşları gəncləri zərərli vərdişlərdən, xüsusilə narkomaniyadan qorumaq məqsədilə maarifləndirmə tədbirlərini davam etdirirlər.***

Bakı Şəhər Baş Polis İdarəsinin təşkilatçılığı ilə Binəqədi rayonu 314 və Sabunçu rayonu 90 nömrəli orta məktəblərdə “Narkomaniyaya yox deyək!” mövzusunda maarifləndirici tədbir keçirilib.



Tədbirlərdə **Baş İdarənin Yetkinlik Yaşına Çatmayanlarla Profilaktiki İşin Təşkili bölməsinin rəisi, polis polkovniki İbrahim İsmayılov, həmçinin bölmənin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova** çıxış edərək, narkotik vasitələrin insanın həyat və sağlamlığı üçün yaratdığı təhlükələrdən bəhs ediblər.



Narkomaniyaya qurşananların həyatla vaxtsız vidalaşdığını, ağır xəstəliklərə düçar olduğunu deyən polis əməkdaşları şagirdlərin mükəmməl təhsilə yiyələnərək faydalı vətəndaş kimi böyüməsi üçün dövlət tərəfindən hər cür şəraitin yaradıldığını diqqətə çatdırıblar.

Pirallahı Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə “Abşeronneft” NQÇİ-nin gənc əmək kollektivində keçirilən “Gənclər narkotikə yox deyir!” maarifləndirmə tədbirində çıxış edən **RPŞ-nin rəis müavini, polis polkovnik-leytenantı Elman Kazımov** “Ağ ölüm”ün ailə və cəmiyyət üçün yaratdığı problemlərdən danışıb. Qeyd edilib ki, narkomaniyanın yayılmasının qarşısının alınması məqsədilə cəmiyyətin hər bir üzvü hüquq mühafizə orqanları ilə birgə mübarizə aparmalıdır.






Kəlbəcər rayon 99 nömrəli orta məktəbdə də anoloji maarifləndirmə tədbiri keçirilib. Görüşdə çıxış edən polis əməkdaşları ölkəmizdə, o cümlədən yerlərdə narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin aşkar edilməsi istiqamətində aparılan genişmiqyaslı və qətiyyətli mübarizə tədbirlərinin nəticələri barədə məlumat veriblər.

Diskusiya formasında baş tutan görüşlərdə şagirdləri maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, narkomaniya ilə mübarizə çərçivəsində anoloji tədbirlər şəhər-rayon polis şöbələrinin təşkilatçılığı ilə Yardımlı, Beyləqan, Qazax, Bərdə, Şəki, Goranboy, Quba və Masallı rayonlarındakı məktəblərdə də keçirilib.

# TƏRƏFSİZ, ŞƏFFAF VƏ OBYEKTİV



Paytaxtın Nizami rayonu Qara Qarayev prospektilə Özbəkistan küçəsinin kəsişməsində baş verən yol-nəqliyyat hadisəsi zamanı xəsarət alan olmasa da tərəflər bir-birinə qarşılıqlı ittihamlar səsləndiriblər. Hadisəni törədənlərin – “Hunday Sonata” markalı avtomobilin sahibi Tatyana Hüseynovanın və “Opel Astra” markalı taksi sürücüsü Ramin Rəfiyevin mübahisəsinə Rayon Polis İdarəsinin Təhqiqat Şöbəsində təhqiqatçı, polis mayoru Kənan Əliyev son qoyub. Belə ki, əvvəlcə hadisə yerinə baxış keçirilib, sxemi tərtib edilib. Tərəflər ayrı-ayrılıqda dinlənildikdən sonra ərazidə olan Təhlükəsiz Şəhər kameraları incələnib. Görüntülərə əsasən müəyyən olunub ki, vətəndaş T.Hüseynova Yol Hərəkəti Haqqında Qanunun tələblərini pozaraq sağ tərəfdə hərəkətdə olan taksiyə yol verməli olduğu halda hərəkətini davam etdirib və nəticədə ehtiyatsızlıqdan hadisəni törədib.

Tərəflər razılığa gəlib və taksi sürücüsünə dəymiş maddi ziyan ödənilib.

Vətəndaş R.Rəfiyev üzləşdiyi bu hadisə ilə bağlı operativ və obyektiv araşdırılma aparıldığına, ədalətin bərqərar olunmasına, eləcə də ona dəymiş maddi ziyanın ödətdirilməsində göstərdikləri köməkliyə görə Azərbaycan Polisinə minnətdarlıq məktubu ünvanlamağı da unutmayıb.

*T.Əlizadə*

# GÜCÜMÜZÜ VƏTƏNDAŞDAN ALIRIQ

***İctimai asayişin və təhlükəsizliyin yüksək səviyyədə qorunması Azərbaycanın ən böyük uğurlarındandır. Məhz sabitliyin zəmin yaratdığı iqtisadi artım və hərbi qüdrət ölkəmizə lider dövlət statusu qazandırdı, eləcə də ərazi bütövlüyü uğrunda apardığı müharibədə zəfəri təmin etdi.***

Etibarlı təhlükəsizliyin “dusturunu” tapmış ölkəmiz insan hüquq və azadlıqlarının, vətəndaşların qanuni mənafelərinin qorunması kimi vacib məsələləri də asanlıqla həll edir.

Hər hesabat dövründə olduğu kimi, ötən ilin yekunları da göstərdi ki, ictimai asayişin qorunması və cinayətkarlığa qarşı mübarizədə daxili işlər orqanları nəzərəçarpan nailiyyətlər qazanmaqla, sabitliyə hər bir vətəndaşın gündəlik həyatda hiss edə biləcəyi töhfələr verib. Karantin qaydalarına nəzarət tədbirləri polisin ümumi iş yükünü artırsa da, cinayətkarlıqla mübarizədə ayıq-sayıqlığını itirmədiyi və qətiyyətli olduğu DİN-in son Kollegiya iclasında səslənən rəsmi rəqəmlərdən bir daha bəlli olur.

***Daxili işlər orqanları, dövlətin digər güc strukturları ilə birlikdə ölkəmizi əmin-aman, təhlükəsiz məkana çevirib***

Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov iclasda daxili işlər orqanlarının və Daxili Qoşunların cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi, xüsusi karantin rejiminə nəzarətin həyata keçirilməsi sahəsində xidməti vəzifələrin öhdəsindən layiqincə gəldiyini, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə və işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyi etibarlı təmin etdiyini vurğulayıb.

Bu “etibarlı təmin” epitetini rəqəmlər dəqiq ifadə edir, ancaq təkrar olmasın deyə təfsilatı ilə yenidən yazmırıq. Göstəricilərdə xüsusilə diqqət çəkən ən vacib nüanslardan biri cinayətlərin açılmasında vətəndaşların iştirak faizinin artmasıdır. Onların iştirakı ilə açılan cinayətlərin sayının hesabat dövründə 39 faiz artması ictimaiyyətin polisə inamını, güvəndiyini və cinayətkarlıqla birgə mübarizənin uğuruna etimad bəslədiyini ortaya qoyur. Qısa desək, bu gün polisin arxasında güclü sosial baza, vətəndaş həmrəyliyi var.

Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə də vətəndaşlar polisin yanında, bizimlə eyni səngərdə mövqe tutub və bu bəlaya qarşı ictimai cəbhə açıb. Qanunsuz dövriyyədən 2020-ci illə müqayisədə 1,1 ton çox - 3 ton 45 kiloqram narkotik vasitənin çıxarıldığını, 174 tondan artıq narkotik tərkibli bitkilərin aşkarlanıb məhv edildiyini vurğulayan nazirin vətəndaşların məlumatları əsasında müsbət nəticələri olan bir çox əməliyyatların keçirildiyini xüsusi qeyd etməsi, cinayətlərin açılmasında fəal vətəndaşlıq mövqeyinin əhəmiyyətini göstərir, həm də polisin öz gücünü ictimaiyyətdən aldığının rəsmi ifadəsi kimi səslənir.

Yeri gəlmişkən, yeniyetmələr və gənclər arasında antinarkotik təbliğatın daha məqsədyönlü davam etdirilməsinin vacibliyinə diqqət çəkən nazir ölkədə narkotiklərə tələbatın azaldılmasının əhəmiyyətinə də toxunub. Daxili İşlər Nazirliyinin bu məsələdə cəmiyyətin yetkin təbəqəsinə, sağlam düşüncəli hər bir vətəndaşa güvəndiyini, mediadan, sosial şəbəkələrin aktiv istifadəçilərindən, o cümlədən bloggerlərdən daha böyük gözləntilərinin olduğunu qeyd edib.

Ötən Kollegiya iclaslarının birində cənab nazirin narkotiklərlə mübarizədə ictimaiyyətə ünvanlanan çağırışından sonra nəticənin özünü rəqəmlərdə necə əks etdirdiyini yuxarıda qeyd etdik. Vətəndaşlar istər maarifləndirmə tədbirləri, istərsə də əməliyyat məlumatları ilə polisə dəstək olublar, bu isə ümumi işə fayda verib. Və bu davam etməlidir ki, polis sağlam gələcək uğrunda apardığı mübarizədə istənilən nəticəni əldə edə bilsin.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

## 2022/2023-cü tədris ili üçün DİN-in Polis Akademiyasında “hüquqşünaslıq” ixtisası üzrə əyani təhsilə kursantların qəbuluna dair

## ELAN

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasına “hüquqşünaslıq” ixtisası üzrə əyani təhsil üzrə 200 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi həqiqi hərbi xidmətə yararlı olan, buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, 2022-ci ilin yanvar, aprel və iyul tarixli çağırışlarında həqiqi hərbi xidmətə getməli olan çağırışçılar, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, eləcə də “Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında” Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmır.

Sənədlərin qəbulu 2022-ci il yanvar ayının 24-dən mart ayının 5-dək bazar günləri istisna olmaqla hər gün saat 10:00-dan 17:00-dək namizədin təhsil aldığı təhsil müəssisəsinin yerləşdiyi inzibati ərazi üzrə polis idarə və ya şöbələrində həyata keçiriləcək. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

***– şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);***

***– təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd;***

***– yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;***

***– ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);***

***– oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;***

***– 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).***

Seçmə komissiyasının vaxtı barədə və Polis Akademiyası haqqında ətraflı məlumatlar Daxili İşlər Nazirliyinin www.mia.gov.az və Akademiyanın www.pa.edu.az internet saytlarında yerləşdiriləcək.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012) 454-12-78, (012) 590-98-16.**

## 2022/2023-cü tədris ili üçün DİN-in Polis Akademiyasına ali təhsilin bakalavriat səviyyəsinə qiyabi təhsil üzrə qəbul

DİN-in Polis Akademiyasında qiyabi təhsilə qəbulla bağlı müsabiqədə - sıravi və kiçik, orta və böyük rəis heyəti vəzifələrində xidmət edən, tam orta, yüksək texniki peşə, orta ixtisas və ya ali təhsili başa vurmaq haqqında müvafiq dövlət nümunəli sənəd almış polis əməkdaşları yanvar - aprel aylarında əsaslandırılmış raportla Azərbaycan Respublikası daxili işlər nazirinə müraciət etməklə iştirak edə bilərlər.

Əməkdaşlar Polis Akademiyasında keçirilən daxili işlər orqanları əməkdaşları üçün nəzərdə tutulmuş fiziki hazırlıq üzrə normativləri yerinə yetirdikdən sonra Akademiyaya qəbul üzrə müsabiqədə iştiraka buraxılırlar.

Akademiyaya qəbul üzrə müsabiqə informasiya-kommunikasiya texnologiyaları vasitəsi ilə Polis Akademiyasında test üsulu ilə keçirilən qəbul imtahanından ibarətdir.

Daha ətraflı məlumatı DİN-in Polis Akademiyasının - **(012) 454-12-78 və ya Baş Kadrlar İdarəsinin - (012) 590-99-82, 19-82 (daxili) nömrəli telefonları vasitəsilə ala bilərsiniz.**

## 2022/2023-cü tədris ili üçün DİN-in Polis Akademiyasına ali təhsilin magistratura səviyyəsinə əyani təhsil üzrə qəbul

1.Azərbaycan Respublikası DİN-in Polis Akademiyası dövlət hesabına 2 illik əyani təhsil üçün hüquqşünaslıq ixtisasının “Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası” ixtisaslaşması üzrə magistraturaya qəbul elan edir.

2.Akademiyanın magistraturasına qəbul olunmaq istəyən əməkdaş sənədlərin qəbulu üçün 2022-ci ilin fevral ayının 7-nə kimi əsaslandırılmış raportla Azərbaycan Respublikasının daxili işlər nazirinə müraciət edir.

3.Daxili işlər orqanları əməkdaşlarının Akademiyaya qəbulu müsabiqə yolu ilə həyata keçirilir.

4.Daxili işlər orqanları əməkdaşlarının Akademiyanın magistraturasına qəbulu üzrə müsabiqə Polis Akademiyasında informasiya-kommunikasiya texnologiyaları vasitəsi ilə test üsulu ilə keçirilən qəbul imtahanından ibarətdir.

5.İmtahanda bakalavrlara ümumi intellekt səviyyəsinin yoxlanılması üçün 50, informatika üzrə 25 və xarici dil üzrə 25 test tapşırığı təqdim olunacaq.

6.Daha ətraflı məlumatı DİN-in Baş Kadrlar İdarəsinin - **(012) 590-99-47, 19-47 (daxili),** Polis Akademiyasının - **(012) 454-12-78 və ya 454-13-85** nömrəli telefonları vasitəsi ilə ala bilərsiniz.




## Ürəyimizi xəstəliklərdən necə qoruyaq?



Peşəmiz riskli peşələr sırasına daxildir. Əsəb, stres və gərginlik, demək olar ki, yol yoldaşımızdır. Hisslərimizin ən yaxın məhrəmi ürək olduğu üçün ilk növbədə onu, bir sözlə, sağlamlığımızı diqqət mərkəzində saxlamalıyıq. Ürəklə “zarafat” etmək isə bizə həyatımız bahasına başa gələr. Həkim məsləhətinə qulaq asmaqla ömrümüzü uzada bilərik.

Mütəxəssislər deyir ki, ürək-damar sistemi xəstəlikləri bütün dünyada ölümə səbəb olan xəstəliklər sırasında birinci yer tutur.

Əgər bu sadə qaydalara əməl etsəniz ürəyinizi ağır fəsadlardan qoruya bilərsiniz. Yağlı, duzlu, qızardılmış qidalardan imtina etmək, daha çox balıq yemək mütəxəssislərin tövsiyə etdiyi qaydalar arasındadır. Balıq ürəyin sağlamlığına çox müsbət təsir göstərir, fəaliyyətini yaxşılaşdırır. Məhz bu səbəbdən mətbəxi dəniz məhsulları ilə zəngin olan ölkələrdə ürək-damar sistemi xəstəlikləri daha azdır.

Kardioloqlar əti həftədə 1-2 dəfə yeməyi, damarların sağlamlığına mənfi təsir etdiyinə görə qidalanmada duzun həcmini minimuma endirməyi məsləhət görürlər. Qida rasionuna kaliumla zəngin olan qidaları daxil etmək vacibdir. Çünki kalium ürəyin normal fəaliyyəti üçün ən vacib minerallardan biridir. Üzüm, banan, brokkoli, sobada bişirilmiş kartof, sitrus meyvələri, kişmiş, ərik və ərik qurusu, xurma və s. kaliumla zəngindir. Rasionda hər gün meyvə-tərəvəz, göyərti olmalıdır. Un məmulatlarının və şirin qidaların qəbulunu azaltmaq lazımdır. Spirtli içkilərdən, siqaretdən, həmçinin stresdən və əsəbdən uzaq durmaqla özünüzə ikinci həyat bəxş etmiş olarsınız.

Yeri gəlmişkən, artıq çəkidən əziyyət çəkənlərə arıqlamaları tövsiyə olunur.

*Natiq Abdullayev,*
*polis mayoru*




**Nəqliyyatda Baş Polis İdarəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş V.Miqunov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 40 qram tiryək və 1 ədəd avtomat patronu götürülmüşdür.

Ətrafında aparılan tədbirlərlə onun Sabunçu dəmir yolu stansiyasının ərazisində gizlətdiyi nömrəsi silinmiş “AKM” markalı avtomat, patron darağı və 27 ədəd patron da aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Nəsimi RPİ-nin 20-ci Polis Bölməsinə** yanvarın 23-də saat 03:00 radələrində 3-cü Alatava yaşayış sahəsində yaşayan N.Əhmədovaya evində bıçaqla xəsarət yetirilməsi və pulunun alınması barədə məlumat daxil olmuşdur.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində quldurluq əməlini törətməkdə şübhəli bilinən qonşusu Ə.Əlizadə müəyyən edilərək saxlanılmışdır.

# STATİSTİKA

## Aşkar edilən silah-sursat

Daxili işlər orqanları tərəfindən qanunsuz saxlanılan silah-sursatın aşkar edilərək götürülməsi məqsədilə əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Əldə edilən məlumatlar əsasında polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində yanvarın 19-dan 25-dək respublikanın ayrı-ayrı rayonlarında vətəndaşlardan qanunsuz saxladıqları müxtəlif markalı ümumilikdə 48 ədəd ov tüfəngi götürülüb.

Faktlar üzrə polis şöbələrində müvafiq araşdırmalar aparılır.

## Toyların monitorinqi

19-25 yanvar tarixlərində Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində 1064 toy şənliyinin monitorinqini həyata keçirib.

Monitorinqlər 1043 şadlıq sarayında, 21 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarının pozduqlarına görə:

- 26 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimə olunub;
- 2 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsi ilə inzibati qaydada həbs edilib;
- 1 nəfər barəsində toplanmış material baxılması üçün məhkəməyə göndərilib;
- 379 nəfər “COVID-19” pasportu olmadığına görə şənliyə buraxılmayıb.

## Koronavirus xəstələri saxlanılıb

Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyanın ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət–profilaktik tədbirləri davam etdirirlər.

Yanvarın 19-dan 25-dək olan müddətdə polis əməkdaşları tərəfindən respublika ərazisində 37 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 2 nəfər barəsində Cinayət Məcəlləsinin 139-1-ci (Epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

## Kriminal icmal

- Yanvar ayının 19-dan 25-dək olan müddət ərzində respublikanın daxili işlər orqanları tərəfindən 408 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 42 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 334, o cümlədən borclu şəxs qismində axtarışda olan 256 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 10 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 12 nəfər ölmüş, 12 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 229 fakt müəyyən edilmişdir.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 7647
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik